# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat məruzəsi

**(Əvvəli 3-cü səhifədə).**

Rayonun yerli xərcləri təhsil xərcləri üzrə 76,8 min manat, səhiyyə xərcləri üzrə 20,7 min manat, icra hakimiyyəti orqanlarının saxlanması xərcləri üzrə 63,6 min manat, mədəniyyət xərcləri üzrə 21,2 min manat, mənzil təsərrüfatı xərcləri üzrə 57,3 min manat, kommunal təsərrüfat xərcləri üzrə 180,3 min manat və digər xərc maddələri üzrə 6,9 min manat olmaqla, ümumilikdə 6 ayda 426,8 min manat təyinatdan az icra olunmuşdur. Sair xərclər üzrə 4,3 min manat vəsait təyinatdan artıq xərclənmişdir.

Yerli xərclərin 422,5 min manat təyinatdan az icra olunmasının əsas səbəbi bəzi xərc maddələri üzrə (binaların və mənzil fondunun cari və əsaslı təmiri, avadanlıq və invertarların alınması, yolların əsaslı təmiri və sair xərclər) faktiki icranın tam yerinə yetirilməməsi olmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 3-ü əlavə dəyər vergisi, dövlər rüsumu və sair daxil olmalar üzrə proqnoz tapşırıqlar kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 1.304,1 min manat az vəsait daxil olmuşdur. Digər növ gəlirlər üzrə 1.398,1 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 94 min manat çox yerinə yetirilmişdir.

Yerli büdcənin hesabında 1 iyul 2015-ci il tarixə 514,9 min manat vəsait qalığı yaranmışdır.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Yarım il ərzində bübün növ istehlakçı qruplar tərəfindən 51.360,6 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 3.081,6 min manata qarşı 2.561,9 min manat vəsait toplanaraq yarımillik yığım planı 83,1 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 62,9 faiz, dövlət müəssisələri üzrə 33,2 faiz, ticarət xidməti üzrə 83,7 faiz, özəl sənaye üzrə 84,7 faiz, əhali qrupu üzrə isə 80,1 faiz olmuşdur. 6 ay ərzində 10/0,4 kV-luq transformator yarımstansiyasının 18 ədədində təhlükəsizlik texnikası qaydalarının bərpası üçün 400 A-lik və 250 A-lik ayrıcı quraşdırılmışdır. 10/6 kV-luq hava xəttinin 12,8 km məsafəsində 31 min manat dəyərində əsaslı və cari təmir işləri görülmüşdür. 10 kV Bum, Vəndam, Laza, Hacıalılı, Qaradeyin, Mıxlıqovaq, Nic, Tüntül, Dizaxlı hava xətlərində KD-10,5, KD-9,5 tipli 38 ədəd dayaq basdırılmış, 1900 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 0,4 kV-luq Zarağan, şəhər 1,2,3,4,5, Vəndam, Tüntül, Bum hava xətlərində yaşıl kütlədən təmizləmə işləri aparılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 27.405 min kub/metr təbii qaz istehlak edilmiş, 2.740,5 min manata qarşı 2.463,9 min manat vəsait toplanaraq ümumi yığım məbləği 89,9 faiz təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 89,3 faiz, büdcə təşkilatları üzrə 90,2 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə isə 90,2 faiz təşkil etmişdir. 6 ay ərzində 159 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 12.005-ə çatdırılmışdır. 2015-ci ilin 6 ayında MRCC MMC tikinti təşkilatı tərəfindən Bum qəsəbəsində 32.263 p/m, Mətin Qaz İnşaat MMC tərəfindən isə Nic qəsəbəsində 7.191 p/m yeni qaz xətti çəkilmişdir. Bundan əlavə Qəbələ Xidmət sahəsinin daxili imkanları hesabına 1.156 p/m müxtəlif diametrli xətlər yenisi ilə əvəz olunmuşdur.

Qəbələ Su-kanal İdarəsi tərəfindən "Qaraçay" və "Duruca" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin H. Əliyev, Axundov, İsmayıl bəy, Nəsimi və M. Mərdanov küçələrində aparılan abadlıq işləri ilə əlaqədar mövcud su techizatı və kanalizasiya xətlərində müxtəlif diametrli borular dəyişdirilmiş, təmir-bərpa işləri aparılmışdır. Keçmiş radiolokasiya stansiyasının yaşayış şəhərciyində bir ədəd artezian nasosu dəyişdirilmiş, İsmət Qayıbov və Şirvani küçələrində 1.420 p/m su xətti yenilənmiş, 80-ə yaxın abonentin su xətləri bərpa edilmişdir. İsmayıl bəy küçəsində plastik borularla 300 p/m su xətti çəkilmiş, 30-a yaxın abonentin su xətti təmir olunmuşdur. Beşmərtəbəli yaşayış binalarının zirzəmi hissəsində təmir-bərpa işləri aparılmış və su axıntısının qarşısı alınmışdır. 6 ay ərzində 131,4 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 85,2 faizi yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 90 faiz, büdcə üzrə 94 faiz, kommersiya və digər təşkilatlar üzrə 83,3 faiz təşkil etmişdir.

Prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına Qəbələ rayonu üzrə 12 subartezian quyusunun istismara verilməsi nəzərdə tutulmuşdur. Bunlardan 5 subartezian quyusu istismara verilmiş, 7-nin isə qazılması istiqamətində işlər davam etdirilir.

Qəbələ rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən 310,6 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı 590 min manat tarif gəliri proqnozuna qarşı 593,5 min manat gəlir əldə etmiş, proqnoz tapşırığı 100,5 faiz əməl etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz, yəni 6,3 min manat artıq gəlir əldə edilmişdir. Ümumilikdə, rayon üzrə 1 şəhər, 30 kənd EATS-nin montaj tutumu 11980 nömrəyə çatdırılmışdır. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. 6 ay ərzində Qəbələ şəhərində abadlıq işlərinin görülməsi ilə əlaqədar Musabəyov küçəsində mövcud yerüstü xətlər yeraltı vəziyyətə gətirilmişdir. Nic qəsəbəsində, Uludaş, Yemişanlı kəndlərində xətt təsərrüfatının təmir işləri başa çatdırılmışdır. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 4290, özəl provayderlərin sayı 446, ümumilikdə 4736 nəfər təşkil edir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə internet abunəçilərinin sayı 27,9 faiz, yəni 1035 abunəçi artmışdır.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 115,3 min manata qarşı 118,9 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 103,1 faiz yerinə yetirmişdir. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 5,8 min manat çox olmuşdur.

Qəbələ rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində hal-hazırda 3.577 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 270,8 min manat təşkil edir. Yarım il ərzində 57 nəfər 18 yaşadək əlil uşağa, 80 nəfər I, II və III qrup əlillərə, 15 ailənin 41 uşağına ailə başçısını itirməyə, 15 nəfərə qocalığa görə müavinət təyinatı aparılmışdır. Bundan başqa 592 ailənin 629 uşağına anadan olmasına görə, 16 nəfərə dəfn üçün birdəfəlik müavinət ödənmişdir. 559 ailəyə ünvanlı sosial yardım təyin edilmiş, həmin ailələrdən 1 yaşadək uşağı olan 40 ailənin 40 uşağına müavinət təyin edilmişdir. Hal-hazırda mərkəzdə 927 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Dövlət Sosial Müdafiə Fondu Qəbələ Rayon Şöbəsi tərəfindən 2015-ci ilin birinci yarısında gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 4.099,1 min manata qarşı 3.688,7 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 90 faiz əməl olunmuşdur. Yarım il ərzində 642 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 14-ü hüquqi, 538-i fiziki şəxs, 90-ı isə pay torpaq mülkiyyətçisi olmuşdur. 01 iyul 2015-ci il vəziyyətinə şöbə üzrə 11.539 pensiya işi üzrə 11.842 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 10.682,1 min manat pensiya, 245,7 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 1.770,6 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 153 manat 44 qəpik təşkil etmişdir.

Qəbələ Rayon Məşğulluq Mərkəzində işsiz və işaxtaran kimi 412 nəfər vətəndaş qeydiyyata alınmış, onların 11 nəfərinə işsizlik statusu verilmişdir. Qeydiyyatdan keçmiş 412 nəfərdən 2 nəfəri kvota üzrə olmaqla, 170 nəfəri münasib işlə təmin edilmişdir. Mərkəz tərəfindən qeydiyyatda olan 9 nəfər işaxtaran vətəndaş Asan Xidmət Mərkəzinin tikintisində müvəqqəti işlərə, qeyri-məşğul əhalidən 5 nəfəri qadın olmaqla 17 nəfər "Sahibkarlığın əsasları" peşə kursuna, 5 nəfər işaxtaran vətəndaş isə Qəbələ Suvarma Sistemləri İdarəsi ilə bağlanmış müqaviləyə əsasən əmək haqqı 100 faiz müəssisənin hesabına ödənilməklə 1 ay müddətinə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. 6 ay ərzində 13 nəfər işsiz vətəndaşa müavinət təyin edilmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün 289 min kubmetr suvarma kanalları lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 563 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 153 kubmetr qabion bəndi vurulmuş, 1517 kubmetr daş-beton bəndi cari təmir edilmişdir.

2015-ci ilin 6 ayı ərzində Qəbələ şəhər 5 saylı tam orta məktəb binası, "Tufandağ" dağ-xizək yay-qış istirahət kompleksinə daxil olan Xizəkçilik mərkəzi və "Tufandağ" otel və YAP Qəbələ Rayon Şöbəsinin inzibati binası obyektlərində tikinti-quraşdırma işləri başa çatdırılmışdır.

Hazırda Qəbələ Futbol Akademiyası və Stadionlar kompleksi, Dəmiraparan çayı üzərində 10 aşırımlı 324 paqonmetr uzunluqda dəmir-beton körpü, "Aquapark" istirahət kompleksi, "Qolf klub" kompleksi, "Tufandağ" dağ xizək yayqış istirahət kompleksi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin inzibati binası, "Qrand siti" otel binası, rayon məhkəməsinin inzibati binası, rayon prokurorluğunun inzibati binası, Savalan kəndində "Raftinq Mərkəzi", "Laza" sərhəd zastavası, Nohur gölü ərazisində "Oteller Kompleksi", Gömrük Akademiyası, "Asan" xidmətin Qəbələ rayon filialı, atçılıq mərkəzi, kənd təsərrüfatı idarəsinin inzibati binası, Qəbələ şəhərində 100 yerlik uşaq bağçası, Qəmərvançay üzərində 1 aşırımlı 36 paqonmetr uzunluqda dəmir-beton körpü, Dəmiraparançayın sağ sahilində 1350 paqonmetr uzunluqda dəmir-beton bənd, Qəbələ şəhərində 20 ha ərazidə "Qolf" villalar obyektlərində tikinti quraşdırma işləri davam etdirilir.

Məlumat üçün bildirirəm ki, 2015 -cü ildə Qəbələ Peşə Məktəbinin yeni binasının, rayon mərkəzi xəstəxanası kompleksinin, Xarici Dillər Universteti Qəbələ Filialının, Yengicə su anbarının, Turizm Akademiyası, Qəbələ şəhərində 1 ədəd 120 yerlik uşaq bağçası binası və Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolu obyektlərinin tikintisinə başlanılması nəzərdə tutulmuşdur.

Hazırda şəhərin S. Ə. Şirvani, İ. Qayıbov və Musabəyov küçələrində abadlıq işləri davam etdirilir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Rayon təhsil şöbəsi 2014-2015-ci dərs ilini yüksək nəticələrlə başa vurmuş, IX siniflər üzrə buraxılış imtahanlarının nəticələri 59,7 faiz, XI siniflər üzrə isə 57,9 faiz olmuşdur. Məktəblərdən şəhər 1, 2, 3, 4, 5 saylı, Vəndam qəsəbə 1, 2 saylı, Həmzəli, Bunud, Zarağan 2 saylı, Nohurqışlaq, Tüntül, Daşca, Aydınqışlaq, Hacıalılı kənd tam orta məktəblərində təlim-tərbiyə işinin keyfiyyəti daha yüksək olmuşdur.

Uşaqların I sinfə qəbulu qaydaları haqqında təlimatda dəyişiklik edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin 6 yanvar 2015-ci il tarixli 3/1 №-li kollegiya qərarının tətbiqi ilə bağlı məktəblərdə xeyli hazırlıq işləri görülmüş və 01 fevral 2015-ci il tarixdən I siniflərə qəbul başlanılmışdır.

Aprel ayında Bakı şəhərində keçirilən Fənn olimpiadalarının respublika turu məktəblilərimiz üçün xüsusilə uğurlu olmuş, şagirdlərimiz 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazanmışlar.

Bütün məktəblərdə ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə inşa yazı müsabiqəsi keçirilmişdir.

**(Ardı 5-ci səhifədə).**